# DÜNYA

№ 19-20 SENTYABR / OKTYABR 2017




Xəzər Universiteti
Dünya Məktəbi
Aylıq dərgi




BEYNƏLXALQ TƏLİM STANDARTLARINA ƏSASLANAN DİL KURSLARI

- İNGİLİS DİLİ
- FRANSIZ DİLİ
- ALMAN DİLİ
- RUS DİLİ

- Abituriyent hazırlığı
  Yeni qəbul modelinə uyğun
  IX, X siniflər
- İxtisas qrupları üzrə
  XI siniflər
- İbtidai və yuxarı sinif şagirdlərinə fənlər üzrə dəstək
- Məktəbəqədər təhsil
  4–5 yaş
- Məktəblilər üçün beynəlxalq tədris proqramlarına hazırlıq
  ibtidai
  orta məktəb
  IB diplom proqramları üzrə
  IELTS, SAT, IB kursları
- Respublika və beynəlxalq olimpiadalara hazırlıq
  riyaziyyat, fizika, kimya, biologiya, informatika

XƏZƏR UNİVERSİTETİ · DÜNYA TƏHSİL MƏRKƏZİ ·

# DÜNYA TƏHSİL MƏRKƏZİ



## ƏLAVƏ MƏLUMAT ÜÇÜN:


Əcəmi Naxçıvani 9

dunyaschool.edu.az

info@dunyaschool.az

(+994 12) 563 59 40 /47/48

(+994 55) 632 95 28


# DƏRNƏKLƏR

- NİTQ MƏDƏNİYYƏTİ
- CONVERSATİON CLUB
- MÜALİCƏVİ FİTNES VƏ ÖZÜNÜMÜDAFİƏ
- KUNG FU/ TAİ CHİ (CHİ ENERJİSİ)
- MÜALİCƏVİ GİMNASTİKA
- ZƏKA OYUNLARI VƏ MENTAL ARİFMETİKA
- EBRU ƏL SƏNƏTLƏRİ
- RƏSM
- ŞAHMAT
- KARATE-TAEKVANDO
- RƏQS
- PİANO
- GİTARA
- FUTBOL
- BASKETBOL
- ÜZGÜÇÜLÜK
- KULİNARİYA
- PSİXOLOGİYA - ÖZÜNƏİNAM VƏ KONSENTRASİYA
- DEKORATİV TƏTBİQİ SƏNƏT
- KODİNG (PROQRAMLAŞDIRMA) -ROBOTİX
- FOTO-VİDEO ÇƏKİLİŞ VƏ MONTAJ

# DÜNYA MƏKTƏBİNİN SAYTI













www.dunyaschool.az




ÜZ QABIĞINDA
NAHİDƏ ƏMİRLİ
1-ci sinif

# BU NÖMRƏDƏ № 19-20

Baş redaktor
NAİLƏXANIM İSAYEVA
Baş redaktorun müavini
AFAQ QƏMBƏROVA
Redaksiya heyəti
MƏRUFƏ MƏDƏTLİ
LEYLA CƏBRAYILOVA
RƏNA HƏSƏNOVA

Rəssam
MİR RAFİQ ƏBDÜLRƏHİMOV
Dizayner
ÜLKƏR KƏRİMOVA
Foto
NİGAR FƏRMANOVA
NURANƏ HƏSƏNOVA



49
KİÇİK DÜNYAMIZ



12
IB NEWS



23
XÜSUSİ LAYİHƏ

Bilik günü 7
Məzunlarımız 9
IB NEWS 12
MiLLi MUSİQİ GÜNÜ 14-15
Təlimlər 16-17
Milli Müstəqillik Günü 18
Təbrik 19
20-21 Fransa səfəri
22-27 Xəbərlər
28-35 Təqvim
36-37 Ekskursiyalar
38-45 Yeni rubrika
47-50 Kiçik dünyamız



Xəzər Universiteti Dünya məktəbinin məzunu

LALƏ MƏDƏTOVA

təhsildə göstərdiyi yüksək nailiyyətlərə görə
Azərbaycan Respublikası Təhsil Nazirliyi
tərəfindən qızıl medala layiq görülmüşdür.
Nümunəvi məzunumuz

695 balla

Azərbaycan Tibb Universitetinin müalicə işi
fakültəsinə daxil olmuşdur.
21 avqust 2017-ci il tarixində
Dünya məktəbinin təsisçisi

Nailəxanım İsayeva

təntənəli şəkildə

QIZIL MEDAL və

QIZIL ATTESTATI

Laləl Mədətovaya
təqdim etdi.

# BİLİK GÜNÜ







ÖMRÜN ƏN GÖZƏL, QAYĞISIZ İLLƏRİ - MƏKTƏB İLLƏRİ !

ÜZƏRİNDƏN NƏ QƏDƏR ZAMAN KEÇİRSƏ-KEÇSİN, BU İLLƏR UNUDULMUR.

BU GÜN MƏKTƏBƏ İLK DƏFƏ QƏDƏM QOYAN, SİNİFDƏN SİNFƏ KEÇƏN ÖVLADLARIMIZIN BAYRAMIDIR !











SƏNİ TƏRK ETMİRİK, ZƏRRƏLƏRİN
OLARAQ DÜNYAYA SƏPƏLƏNİRİK
SƏNİ YAŞATMAQ ÜÇÜN,
DÜNYA MƏKTƏBİ!



**LALƏ MƏDƏTOVA**
Azərbaycan Tibb Universiteti



**ÜLVİ FƏRƏCZADƏ**
Azərbaycan Diplomatik Akademiyası



**ÜLKƏR ƏLİZADƏ**
Azərbaycan Tibb Universiteti

**GRADUATION IS NOT THE END; IT'S THE BEGINNING.**

SENATOR ORRIN HATCH






**SURAYYA RZAYEVA**
Bakı Dövlət Universiteti



**NƏZRİN QASIMLI**
Bakı Dövlət Universiteti



**NAHİD QULİYEV**
Bakı Dövlət Universiteti



**İNCİ MƏMMƏDLİ**
Koç Universiteti



**CAVİD HACIYEV**
Bilkent Universiteti





**SOLMAZ CƏFƏRLİ**
Azərbaycan Dövlət İqtisad Universiteti



**NƏRMİN TAĞIYEVA**
City, University of London



**SİNAN İSAYEV**
Bahçeşehir Universiteti

**ШКОЛА — ЭТО МАСТЕРСКАЯ, ГДЕ ФОРМИРУЕТСЯ МЫСЛЬ ПОДРАСТАЮЩЕГО ПОКОЛЕНИЯ, НАДО КРЕПКО ДЕРЖАТЬ ЕЕ В РУКАХ, ЕСЛИ НЕ ХОЧЕШЬ ВЫПУСТИТЬ ИЗ РУК БУДУЩЕЕ.**

АНРИ БАРБЮС



**FİRUDİN YUSİFLİ**
Xəzər Universiteti



**AYTƏN XANLAROVA**
Bakı Dövlət Universiteti



**ŞAİQ XANKİŞİZADƏ**
Bilkent Universiteti



**OSMAN ƏFƏNDİYEV**
Toronto Universiteti



**HÜSEYN QƏHRƏMANOV**
Warsaw University of Technology





**NİGAR HƏSƏNZADƏ**
Bilkent Universiteti



**MEHMAN GƏRƏKMƏZLİ**
Azərbaycan Texniki Universiteti



**QƏDİM QARAYEV**
Azərbaycan Dövlət İqtisad Universiteti



**ELÇİN AĞAYEV**
Azərbaycan Diplomatik Akademiyası



DÜNYA MƏKTƏBİ



**ORXAN AĞAMALI**
İstanbul Özyegin Universiteti



**CAVAD MƏMMƏDOV**
George Washington University



**XALİQ ABBASOV**
Ankara Qazi Universiteti



**NAZİM ƏLİYEV**
George Mason University





**LƏMAN ABBASOVA**
İstanbul İstinye Universiteti



**NİGAR MƏMMƏDOVA**
Azərbaycan Tibb Universiteti



**HƏCƏR ABDULLA**
Exeter University

**ELM HƏQİQƏTİ, GÖZƏLLİYİ ÖYRƏNİRSƏ, TƏBİƏTİN, YAŞADIĞIMIZ DÜNYANIN ƏN DƏRİN SİRLƏRİNİ AÇIRSA, İNSAN DA BU ƏSRARƏNGİZ ALƏMLƏ TƏMASDA OLURSA, DAXİLƏN, MƏNƏN SAFLAŞIR...**

**HƏYATIN, KAİNATIN BÜTÜN SİRLƏRİNİN AÇARI OLAN ELM AĞILIN ÇIRAĞI, İNSANIN ƏSL ÜSTÜNLÜYÜDÜR. TƏBİƏT, CANLILAR, BİTKİLƏR ALƏMİ - HƏYAT ADLI BU ƏBƏDİ SİMFONİYA DA ELMİN ÜZƏRİNDƏ QURULUB...**

**ELMİN UCALIĞA APARAN YOLLARINDA SİZƏ UĞURLAR, ƏZİZ MƏZUNLAR!**



**FİDAN QURBANOVA**
Bakı Mühəndislik Universiteti



**AYSU NƏBİYEVA**
Warwick University



**TAMERLAN ŞIXƏLİZADƏ**
Malardalen University



**TURAL VƏLİYEV**
Azərbaycan Diplomatik Akademiyası



**Dunya School IB Department is delighted to offer their best wishes to all IBDP students receiving their results following a strong commitment to learning and a great deal of hard work.**

**We would like also to thank our IBDP staff who works tirelessly to ensure we deliver those results.**

**Independent studies prove that İb students are well-prepared to succeed in post-secondary study.**

# IB



## “EVERY ACCOMPOLISHMENT STARTS WITH THE DECISION TO TRY

**The IB's preparation for entry to higher education is second to none and, in recognition of this, the world's finest universities welcome DP graduates as academically well-prepared humanists, who will make mindful contributions to our world today and in years to come.**

**And, perhaps most importantly, they are set to make important and inspiring contributions to their communities, and will help achieve the IB's mission of education for a better world.**



**We wish them all good luck and best wishes for a future we know they will tackle with energy and ingenuity.**

“One book, one pen, one child, and one **teacher** can change the world.”

- Malala Yousafzai



HEYDƏR ƏLİYEV FONDU

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

18-26 sentyabr 2017-ci il

# ÜZEYİR HACIBƏYLİ IX BEYNƏLXALQ MUSİQİ FESTİVALI

AZƏRBAYCAN XALQININ DAHİ OĞLU, MUSİQİ MƏDƏNİYYƏTİMİZİN KORİFEYİ ÜZEYİR BƏY HACIBƏYLİNİN DOĞUM GÜNÜDÜR.

# Milli Musiqi Günü

Üzeyir Hacıbəylinin əsərləri həm də xalqın azadlıq mübarizəsinə xidmət edən ictimai məzmunlu, milli koloritli, tərbiyəvi əsərlərdir.

BÖYÜK BƏSTƏKARIN AD GÜNÜNÜN BAYRAM KİMİ QEYD EDİLMƏSİ ƏNƏNƏSİNİN ƏSASINI MAESTRO NİYAZİ QOYMUŞDUR. GÖRKƏMLİ BƏSTƏKAR VƏ DİRİJOR NİYAZİ ÜZEYİR BƏYİN VƏFATINDAN SONRA HƏR İL BU GÜNÜ QEYD EDƏRMİŞ. ÜZEYİR BƏYİN DOĞUM GÜNÜNÜN MUSİQİ TARİXİMİZİN ƏN ƏLAMƏTDAR HADİSƏSİ KİMİ ANILMASI TEZ BİR ZAMANDA ƏNƏNƏ HALINI ALMIŞDIR.



Foto:
Ketsxoveli küçəsi 67- ünvanlı mənzil.
İş zamanı N 4242 arxivdən

Milli Musiqi Günü DÜNYA Məktəbində hər il xüsusi təntənə ilə qeyd olunur.

Ənənəyə uyğun olaraq, bu il də həmin günlərdə məktəbin radio qovşağından Üzeyir bəyin əsərlərindən parçalar səsləndirildi. Musiqi dərsləri dahi bəstəkarın yaradıcılığına həsr olundu. Şagirdlər onun operettalarından maraqlı parçalar ifa etdilər.






Beynəlxalq Muğam Mərkəzində "Mədəniyyət" kanalının təşkilatçılığı ilə **"YENİ ROMANSLAR"** müsabiqəsinin qaliblərinin təqdimetmə mərasimi keçirilib.

Tədbirdə "Mədəniyyət" kanalının direktoru, müsabiqənin təşəbbüskarı Ramil Qasımov layihənin romans janrının mədəniyyətə verdiyi töhfələrdən və Azərbaycan vokalçılarının repertuarını zənginləşdirəcəyindən danışdı.

# "İkimizdən birimiz"

**musiqisi: SEVDA RƏHİMOVA**
**sözləri: HAMLET İSAXANLI**

Bu ilin iyun ayında elan olunan **"Romans janrı üzrə müsabiqə"**də iştirak edən bəstəkarlar mükafata layiq görülüb.

Mərasiminin sonunda qaliblərin arasında **DÜNYA Məktəbinin müəlliməsi, bəstəkar Sevda Rəhimovanın, prof. Hamlet İsaxanlının "İkimizdən birimiz"** adlı şeirinin sözlərinə bəstələdiyi **romansı** səsləndi.

Müsabiqədə səslənən romanslar fortepiano tərəfindən müşayiət edilirdi. "İkimizdən birimiz" romansını bədii rəhbər **Zülfiyyə Sadıqova**nın iştirakı ilə Xəzər Universiteti Kamera Orkestri müşayiət edirdi.

Dueti əməkdar artistlər **Səidə Şərifəliyeva və Anton Ferştandt** ifa etdi. Konsertdə Xəzər Universiteti və Dünya Məktəbinin kollektivi də iştirak edirdi.



**MÜƏLLİM VƏ TƏLƏBƏLƏR DPD TƏLİMLƏRİNİ UĞURLA BİTİRƏRƏK PEŞƏKAR İNKİŞAF DİPLOMUNA LAYİQ GÖRÜLDÜLƏR. İŞTİRAKÇILAR BELƏ TƏLİMLƏRİN SAYININ ARTIRILMASI, TEZ-TEZ KEÇİRİLMƏSİ HAQQINDA, DÜNYA MƏKTƏBİ KOLLEKTİVİNƏ ÖZ ARZU VƏ İSTƏKLƏRİNİ BİLDİRDİLƏR.**

# DÜNYA PEŞƏKAR İNKİŞAF PROQRAMI

Dünyanın hər yerində olduğu kimi, artıq Azərbaycanda da müasir müəllimlər inteqrasiyaya daha çox diqqət ayırmalı, öz siniflərində xüsusi təhsil ehtiyacları olan şagirdlərə bilik və məlumatlardan effektiv istifadə etməyin yollarını öyrətməli, tədris üçün kommunikasiya texnologiyalarından istifadə etməli, biliyin qiymətləndirilməsi və dərs planlarının qurulması, və valideynlərin məktəblərə cəlb edilməsi istiqamətində daha çox işlər görməlidirlər. Dünya məktəbində **DÜNYA Peşəkar İnkişaf Proqramı (DPD)** tərəfindən müəllimlər üçün interaktiv təlimlər keçirildi. Təlimlərdə Bakı, Sumqayıt, Neftçala, Naxçıvan, Lənkəran, Masallı, Siyəzən, Xaçmaz şəhərlərindən peşəkar və təcrübəçi müəllimlər iştirak edirdilər.






# DPD



Təhsil Nazirliyinin və Dünya məktəbinin təlimçiləri **Aynur Zülfüqarova, İlahə Rəhimova, Leyla Cəbrayılova , Vəfa Vəliyeva** ***"Əzbərçilik yoxsa Analitik düşüncə, Məntiq? ", "Strategiya ilə Oxu və ya Öyrənməyi öyrənmək", "Obyektiv ve Subyektiv Qiymətləndirməyə yeni yanaşmalar", "Fəal Təlim Metodları", "İnternet resurslarından Səmərəli İstifadə Yolları və Elektron Dərs",***



**Nərgiz Mahmudzadə**
Layihə rəhbəri

***"Məktəb-şagird-valideyn münasibətlərinin tənzimlənməsi"*** mövzularında silsilə dərslər keçdilər.





**18 октября 1991 года на сессии Верховного Совета Азербайджанской Республики был принят «Конституционный Акт о государственной независимости Азербайджана».**

**Этот исторический день ежегодно отмечается в нашей школе, проводятся дискуссии, диспуты, презентации фильмов на тему «Чувство патриотизма в нашей жизни».**



VAR İNSANLAR Kİ, DÜNYAYA GƏLƏNDƏ RUHU
EŞQLƏ YOĞRULUR...
VƏTƏNƏ, HƏYATA, İNSANLARA, SÖZƏ-
SƏNƏTƏ,YOLUNA-ƏQİDƏSİNƏ,
PEŞƏSİNƏ OLAN EŞQLƏ!
TANRI SİZƏ SEVGİ DOLU RUH BƏXŞ EDİB!
MÜDRİKLƏŞƏ-MÜDRİKLƏŞƏ YOL GEDƏN
ÖMRÜNÜZƏ NƏZƏR SALANDA EŞQİNİZİN İLAHİ
DUYĞULARIN QANADINDA GÖYLƏRƏ
QALXDIĞINI, BƏŞƏRİ ÇALARLAR LİBASINDA
YERƏ ENDİYİNİ GÖRÜRÜK!



ƏJDƏR AĞAYEV
PROFESSOR

pedaqoq

tənqidçi

publisist

nasir

şair

*Cəfakeş alim, müəllim, nasir, şair həyatınız haqqınızda*
*daha nələr, nələr söyləmək olar?!*
*Vətənə, xalqa, xalqın müşküllərinə, dərd-sərinə, qayğılarına,*
*Azərbaycan elminin, təhsilinin inkişafına*
*həsr etdiyiniz eşqinizin həm ölkələr, həm də ömür addaması*
*var ki, o da Sizə lap çoxdan nəsib olub.*
*DÜNYA Məktəbinin müəllim heyəti də hər zaman*
*öz üzərində sevginizi, qayğınızı hiss edib, duyub.*
*Bizim üçün çox aziz və dəyərlisiniz, Əjdər müəllim!*
***Yubileyinizi** təbrik edirik,*
*Sizə cansağlığı, uzun ömür*
*və GƏLƏCƏK YARADICILIĞINIZDA UĞURLAR*
*arzulayırıq!*

# FRANSA SƏFƏRİ

**Cəmiyyətimizin inkişafına təkan verən ən vacib sahələrdən biri, bəlkə də, birincisi keyfiyyətli təhsildir.**

Qloballaşan dünyamızda hər hansı ölkənin milli təhsil sistemi digər ölkələrin təhsil sistemindən təcrid olunmuş halda fəaliyyət göstərərsə, bilikli, müasir təhsilin tələb etdiyi bacarıqlara yiyələnən, zəngin mənəviyyatlı, tənqidi düşüncəyə malik, daim dəyişən dünyaya öz dəyərli töhfələrini verə bilən gənclər yetişdirə bilməz.



Milli təhsil öz milli dəyərlərini saxlamaqla dünya təhsili ilə qovuşarsa, ölkələr arasında təhsil sahəsində mövcud olan fərqlər aradan qalxar və nəticədə vahid sistem vasitəsilə bütün mütərəqqi ideyalar dünya təhsil sistemində reallaşar.

Bu məqsədlə Dünya məktəbinin əməkdaşları müntəzəm olaraq, xarici ölkələrə səfərlər edib tanınmış məktəblərin təcrübəsi ilə tanış olur, təhsil mütəxəssisləri ilə görüşüb bu sahəsdə həyata keçirilən innovasiyaları öyrənməyə çalışırlar. Bu görüşlər sonrakı illərdə həmin məktəblərlə daha sıx əlaqələrin yaranmasına və təcrübə mübadiləsinin genişlənməsinə imkan yaradır.

09-12 oktyabr 2017-ci il tarixlərində Xəzər Universitetinin təsisçisi, Direktor və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının başçılıq etdiyi nümayəndə heyəti Fransaya səfər etdi.



Səfər Xəzər Univeristeti və Paris Sorbonne Universiteti –ABU DABİ tərəfindən birgə təşkil edilmiş və Azərbaycan Respublikasının Fransadakı səfirliyi tərəfindən dəstəklənmişdir. Səfər zamanı nümayəndə heyəti Paris şəhərinin mərkəzində yerləşən 2 məşhur LUİS-Le-Qrand və Viktor Hüqo məktəblərini ziyarət etdi.



Luis-Le-Qrand məktəbinin direktoru profesor cənab C.Bastinelli və Viktor Hüqo məktəbinin rəhbəri xanım Frans Ponsartla keçirilən görüşdə tərəflər məktəblər haqqında maraqlı təqdimatlar etdilər, əməkdaşlıq imkanları müzakirə olundu. Gələcəkdə əməkdaşlıq əlaqələrinin reallaşdırılması üçün cənab C. Bastinelli və xanım Frans Ponsart Azərbaycana – Dünya məktəbinə dəvət olundular.

"XƏZƏR UNİVERSİTETİ İLƏ UNESCO ARASINDA ELM VƏ TƏHSİL SAHƏSİNDƏ GƏLƏCƏK ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ, DÜNYA MƏKTƏBİNİN UNESCO-NUN ASSOSİATİV MƏKTƏB ŞƏBƏKƏSİNƏ DAXİL OLMA TƏKLİFİ MÜZAKİRƏ EDİLDİ."

Oktyabrın 12-də nümayəndə heyəti UNESCO-nun Parisdəki Baş qərargahında Azərbaycanın UNESCO-dakı daimi nümayəndəsi Anar Kərimovla görüşdü. Bu işgüzar görüşdə Xəzər Universiteti ilə UNESCO arasında elm və təhsil sahəsində gələcək əməkdaşlıq əlaqələri, Dünya məktəbinin UNESCO-nun assosiativ məktəb şəbəkəsinə daxil olma təklifi müzakirə edildi.

Fransa səfərindən yadda qalan hadisələrdən biri də nümayəndə heyəti tərəfindən Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində yüksək səviyyədə təşkil edilmiş Təhsil sərgisi oldu.



# Aynur Zülfüqarova

Kimya müəllimi

Onun kimi təcrübəli və işgüzar müəllimlər şagirdlərdə təlimə maraq oyadır, onların biliklərlə və həyati vərdişlərlə silahlanmasına kömək göstərir.

Dünya məktəbinin kimya müəllimi Aynur Zülfüqarova ölkə təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidentinin

8 oktyabr 2017-ci il sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdü.

Aynur Zülfüqarova əvvəlki illərdə də "Təhsil əlaçısı",

"İlin ən yaxşı müəllimi" adını qazanmışdır. O, tədris materialının şagirdlər tərəfindən şüurlu mənimsənilməsinə çalışır, dərsdə təlimin şüurluluq, fəallıq və əyanilik prinsiplərini rəhbər tutur, yeni təlim texnologiyalarına əsaslanır, kurikulum və təhsil standartlarının tələblərini nəzərə alır.

Bundan başqa, məktəblilərin müstəqil işlərini təşkil edir.

Məktəbimizin müəllimi Aynur Zülfüqarova hal-hazırda Təhsil Problemləri İnstitutunun doktorantıdır.

O, Təhsil Nazirliyində

"Sağlam təhsil - Sağlam millət" layihəsinin metodistidir.

BU GÜNÜN MÜƏLLİMİ DƏRSLƏRİNİ FƏAL ƏSASLARLA QURMALI, DÖVRÜN, ZAMANIN TƏLƏBLƏRİNƏ CAVAB VERMƏLİDİR.


Aynur
500
450
400
350
300
250
200




# Vəfa Vəliyeva

İnformatika müəllimi

Azərbaycan Respublikasının Təhsil İnstitutunun təlimçisi, məktəbimizin İnformatika müəllimi, Vəfa Vəliyeva bu günlərdə Təhsil Nazirliyinin İnkişaf və innovasiyalar üzrə 1-ci qrant müsabiqəsində iştirak etdiyi "21- əsrin innovativ şagirdləri" layihəsi ilə qalib olmuşdur.
Bizim üçün iftixarlı olan budur ki, məktəbimizdə müəllim və şagird kollektivi içərisində iş aparan peşəkar mütəxəssisimiz uğurları ilə ölkəmizin hüdudlarından kənara çıxaraq Moskvada, Sankt-Peterburqda, Kiyev,Trabzonda və digər şəhərlərdə müəllimlər arasında apardığı maraqlı və səmərəli treninqlər, seminarlarla tanınmışdır.

DÜNYA: Vəfa xanım, bu layihəni hazırlamaqda məqsədiniz nə idi?

VƏFA VƏLİYEVA: Orta məktəb şagirdlərinin innovativ bacarıqlarını üzə çıxarmaq, onlarıda İKT bacarıqlarının təkmilləşdirilməsi üçün bu layihəni hazırladım. Müasir dərs demokratik şəkildə, elə qurulmalıdır ki, həm müəllim, həm də şagird bu prosesdə rahat olsun. Müəllimlər yeniliklərdən qorxmamalı, şagirdlər də çəkinmədən öz fikirlərini ifadə edə bilməlidirlər.

Müasir dərsin əsas cəhətlərindən biri şagirdlərin fəallığıdır. Onların fəaliyyətində bir-biri ilə əməkdaşlıq, yaradıcılıq, qarşılıqlı münasibətlər formalaşır. Müəllim dərs forması seçərkən şagirdlərin marağını nəzərə almalıdır. Bunun üçün müəllim İKT-dən bacarıqla istifadə etməlidir. Mövzuya uyğun resursların rəngarəngliyi dərsin maraqlı keçməsinə, qarşıya qoyulan məqsədə nail olmağa imkan yaradacaqdır. Dərs yaradıcı olmalıdır, şagirdlər öz yaradıcılıq qabiliyyətlərini reallaşdıra bilməlidirlər. Dərsdə şagirdlər məntiqi düşünə bilməli, qeyri-standart vəziyyətlərdə qərar qəbul edə bilməlidirlər. Müasir dərs biliyin şagirdə mənimsədilməsinə xidmətlə bərabər şagird şəxsiyyətinin formalaşmasına yönəlməlidir.

DÜNYA: Təlimlər zamanı nələri müşahidə etmisiniz?
Hansı qənaətlərə gəlmisiniz?

VƏFA VƏLİYEVA: Müəllimlər bilik səviyyələrinin yüksəldilməsi üçün öz üzərlərində işləmə bacarıqlarını təkmilləşdirməlidirlər.

Təhsil sahəsində digər problem də müəllimlərin təhsildə yeniliyə, fəal təlim metodlarına açıq olmamalarıdır. Biz bu cəhətləri nəzərə alaraq təlimlərin daha sıx və mütəmadi keçirilməsinə çalışırıq.Mənə elə gəlir ki, təhsildə və məktəbdə işini yeni təlim üsulları ilə quran, fəal təlimi daim iş üslubuna çevirən müəllimlərin fəaliyyətini pedaqoji ictimaiyyət arasında təbliğ etmək, mükafatlandırmaq, onların işini yaymaq lazımdır. Boş zaman yoxdur, boşa gedən zaman var! Zamanımızı boşa keçirməyək, biz müəllimlər hər bir işin öhdəsindən gəlməyi bacarırıq. Yetər ki, istəyimiz olsun! Özümüzdə özümüzə inam yaradaq!

BU GÜN AZƏRBAYCAN TƏHSİLİNDƏ APARILAN İSLAHATLARDA MÜƏLLİM ŞAGİRD YARADICILIĞINA BÖYÜK ÖNƏM VERİLİR. MÜƏLLİM ÖZ DƏRSİNƏ YARADICI YANAŞARSA, ŞAGİRDLƏR DƏ YARADICI CAVAB VERƏCƏKLƏR.





# İlkiyyə Məmmədova

Azərbaycan dili və Ədəbiyyat müəllimi

Məktəbimizin Azərbaycan dili və Ədəbiyyat müəllimi İlkiyyə Məmmədova Azərbaycan Respublikası Rrezidenti yanında Bilik Fondu tərəfindən gənc nəslin təlim-tərbiyəsində fəal iştirakına və yüksək nəticələr əldə etdiyinə gorə TƏŞƏKKÜRNAMƏ ilə təltif olunmuşdur. TƏŞƏKKÜRNAMƏNİ ona Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, YAP Binəqədi RayonTəşkilatı, Binəqədi Rayon Gənclər və İdman Idarəsi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Binəqədi Rayon Komitəsinin birgə təşkilatçılığı ilə 5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü  münasibəti ilə keçirilən tədbirdə təhsil sahəsində qazandığı uğurlarına görə təqdim etmişlər.

İlkiyyə müəllimə 2011-ci ildən Dünya Məktəbində Azərbaycan dili və Ədəbiyyat fənnini tədris edir. O, fənn rəhbəridir, elmi fəaliyyətlə məşğuldur. Çoxlu sayda elmi məqalələri ilə Azərbaycanda və xarici ölkələrin elmi mətbuat orqanlarında, dərgilərdə çıxış etmişdir. İlkiyyə Məmmədova müxtəlif elmi konfranslarda məruzələrlə iştirak etmişdir.

Hazırda XƏZƏR Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının doktorantıdır.

DAIM INKIŞAFDA OLAN SAĞLAM MÜHITLI BIR MƏKTƏBDƏ ÇALIŞDIĞIM ÜÇÜN QÜRUR DUYURAM!






Canon
SONY
Nikon
Nikon





1875-1939



AZƏRBAYCAN DRAMATURQU, NASİR, MAARİF XADİMİ

# Süleyman Sani Axundov

**İlk yaradıcılıq əsəri "Tamahkar" komediyasıdır. O bu əsərini Mirzə Fətəli Axundovun "Hacı Qara" əsərinin təsiri ilə 1899-cu ildə yazmışdır.**

Ədəbiyyatda həmsoyadı Mirzə Fətəli Axundovdan fərqlənmək üçün ərəbcə "ikinci" mənasını daşıyan "sani" sözünü özünə ləqəb götürmüşdür.

**“XX ƏSR AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ FORMALAŞMASINDA, İNKİŞAFINDA DA ONUN BÖYÜK XİDMƏTİ VARDIR...”**

1907-ci ildə qələmə aldığı **“Dibdat bəy”**, **“Türk birliyi”** adlı komediyaları ilə Azərbaycan teatr səhnəsinə siyasi-ictimai mövzu gətirmişdir.

**“Laçın yuvası”**, **“Qaranlıqdan işığa”**, **“Şahsənəm və Gülpəri”**, **“Səadət zəhmətdədir”**, **“Molla Nəsrəddin Bakıda”**, **“Eşq və intiqam”** pyeslərin müəllifidir.

**“Qonaqlıq”**, **“Kövkəbi-hürriyyət”** ,**”Yuxu”** onun ilk hekayələridir. O bu klassik əsərlərini 1905-ci il inqilabının təsiri ilə yazmışdır. Yazıçı **“Tutuquşu”** hekayəsində də aktual məsələyə toxunmuşdur. Bu hekayəsində təqlidçiləri, ana dilinə xor baxanları tutuquşunun simasında ifşa etmişdir. Axundovun yazdığı **“Qan bulağı”**, **“Ümid çırağı”** ,**”Cəhalət qurbanı”**, **“Nə üçün”**, **“Təbrik”**, **“Sona xala”** , **“Namus”**, **“Mister Qreyin köpəyi”**, **“Son ümid”**, **“İki dost, iki düşmən”**,**”Gənc maşinistka və qoca yazıçı”** hekayələri Azərbaycan nəsrinin qiymətli nümunələrindəndir. XX əsr Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında, inkişafında da onun böyük xidməti vardır.

O, “Qorxulu nağıllar başlığı” altında yazdığı **“Əhməd və Məleykə”**, **“Abbas və Zeynəb”**, **“Nurəddin”**, **“Qaraca qız”**,**”Əşrəf”** ilə Azərbaycan uşaq ədəbiyyatına forma, məzmun, üslub yenilikləri gətirmişdir.



*Süleyman Sani Axundov*

# MISTER QREYIN KÖPƏYI

Puan Qay, Xan Qou şəhərinin Nan Si çayının sahilində əski bir daxmada qoca anası ilə yaşayırdı. Bu gənc, küçə aktyoru idi, öz şagirdi balaca Sen O ilə bazarlarda, şənlikli küçələrdə, çayxanalarda oyun çıxartmaq, məzhəkə yaratmaq və mahnı oxumaqla, gündəlik ruzisini qazanardı.

Bəxti gətirib 60-70 qəpikdən çox qazananda, o axşamı, çörək və soğandan əlavə, balıq da alıb şad evlərinə gələrdi və küçədən həyətə daxil olduqda "Ana can, yuy... yuy..." deyə onu səslərdi.

Puan Qayı çinlilər sevərdilər, lakin avropalılar onu görmək belə istəməzdilər, çünki Puan Qay onların pis xasiyyətlərini, məğrurluqlarını, çinlilərə edilən zülmü pontamim tərzi ilə gözəlcəsinə göstərib xalqı güldürürdü. Bunun üstə Puan Qay avropalılar tərəfindən neçə dəfə kötək yemişdi. Lakin yenə də onların təqlidini çıxartmaqdan saqınmazdı. Ancaq şəhərin Avropa hissəsinə enməkdən çəkinərdi.

Bir səhər Puan Qay küçədə həsir salıb, üst paltarını soyunub oyun çıxarırdı. Adamlar yığılıb ona tamaşa edirdilər. Bu zaman mister Qreyin aşpazı bazardan azuqə alıb evə qayıdırdı. Misterin məşhur köpəyi Bollu da onun arxasınca gəlirdi. Bu ingilis buldoqu sahibi kimi qayət kinli, dəhşətli bir köpək idi. Bollunun qapdığı iti və insanı əlindən almaq mümkün deyildi. Ta üstünə su tökməyincə tutduğunu buraxmazdı. Bu köpək çinlilərə çox əziyyət verirdi. Lakin mister Qreyin qorxusundan kimsə onu vura bilməzdi.Bollu adamların dəstəsinə yaxınlaşdıqda uşaqlar: "Mister Qreyin köpəyi gəlir", deyə qaçmağa başladılar. Böyüklər də kənara çəkildilər.

Bu zaman Puan Qay, arxası üstə uzanıb ayaqları ilə Sen O-nu tez-tez yuxarı atıb-tuturdu. Köpəyin diqqətini cəlb edən Puan Qayın həsirin üstə ilan kimi uzanan kəkili idi. Sen O onu gördükdə qışqırdı. Puan Qay, Sen O-nu yerə buraxıb cəld qalxdı. Bu vaxt köpək Puan Qayın arxalığını qapıb qaçmağa başladı... Puan Qay öz şeylərini şagirdinə tapşırıb köpəyin dalınca qaçdı. Küçədən daş yığıb köpəyə atırdı. Lakin Bollu daşların dəyməyinə baxmayaraq, arxalığı dişindən salmırdı. Daşın biri Bollunun ayağına bərk dəymişdi. Lakin höcət köpək yenə də arxalıqdan əl çəkmirdi. Küçəni dönərkən bir Çin polisi onun qabağını aldı:

- Nə üçün köpəyə daş atırsan?

- Görmürsənmi, köpək arxalığı aparır...

- Görürəm və köpəyin də mister Qreyin olduğunu bilirəm.

- Deməli, mister Qreyin köpəyi üçün qanun yoxdur...

- Puan Qay, özün də bilirsən yoxdur, nə üçün soruşursan? Ya arxalığından əl çək, ya da cürətin varsa, get misterdən al.

- Gedərəm və arxalığımı da alaram, - deyə Puan Qay yola düşdü. O daha qaçmırdı, ahəstə gedirkən dərin fikrə dalmışdı. Böyük və ulu vətəninin azğın, qudurmuş imperialistlərin pəncəsi altında boğularaq, sızlayaraq məhv olduğunu düşünürdü:

Bizim üçün nicat yolu yoxmu? Haçana kimi dörd yüz milyonluq Çin, avropalıların əlində oyuncaq olacaq, - deyə öz-özünə sual verirdi.

Var. Lakin biz biqeyrətlər, hamımız inqilabçı Kanton ordusuna qarışıb vətənimizi imperialistlərin əlindən xilas etmək əvəzinə, inqilabçıların qarşısına çıxıb bunlarla müharibə edirik.

Puan Qay, başında belə fikirlər gəlib mister Qreyin darvazasına çatdı və cürətlə içəri girdi. Bu zaman mister Qrey balkonda oturub qəzet oxumaqla məşğul idi. O, itin ayağının Puan Qay tərəfindən yaralanmasından xəbərdar idi. İndi qəzəbli və səbirsiz halda onu gözləyirdi. Mister Qrey başını qaldırıb Puan Qayı gördü və ayağa qalxaraq acıqlı soruşdu:

- Mənim itimi sənmi vurmusan?

- Bəli, mən vurmuşam. Arxalığımı götürüb qaçdı, mən də daş atdım ki, yerə salsın, lakin buraxmadı.

- Sən bilirsənmi ki, ingilis köpəyi tutduğunu buraxmaz?

- Bəli, ingilislərin köpəkləri sahiblərinə oxşamışlar, tutduqlarını buraxmazlar.

- Doğrudur, sən üç böyük cinayət etmisən, ona görə cəza alacaqsan. Birincisi budur ki, mənim sevgili köpəyim Bollunu yaralamısan...

- Mister, sizin papağınızı və ya başqa bir şeyinizi köpək götürüb qaçsa, nə edərsiniz?

- Tapançamı çıxarıb vuraram, yerində qalar.

- Mən ki hələ itinizi öldürməmişəm.

- Sənin həddin nədir ki, elə iş edə biləsən. İkinci, təqsirin bax budur, - deyə mister Qrey ona bir məktub göstərdi.

- Bu sənin arxalığının cibindən çıxmış, bilirsənmi nədir?!

- Kanton əsgəri dostumdan gəlmiş məktubdur.

- Yalan! Kommunist firqəsi tərəfindən nəşr olunmuş proqlamasiyadır, sən o firqənin gizli üzvüsən və oyun çıxarmaq ilə onun fikrini burada yeridirsən.

Bunu eşitdikdə Puan Qay səbir edə bilməyib dedi:

- Elə ki, siz imperialistlər biz çinlilərlə rəftar edirsiniz, axırı hamımız ona gələcəyik. Üçüncü cinayətimi söyləyin.

- Üçüncü cinayət odur ki, izinsiz mənim həyətimə girmisən, o qapıda yazılanı oxumadınmı?

- Xeyr, orada nə yazılmışdır?

- Orada bu yazılmışdır: "Çinlilərə və köpəklərə daxil olmaq yasaqdır".

- Mister o, qanunmu?

- Bəli, qanun.

- O qanunu əlahəzrət Corcmu vermiş?

- Sus, qanmaz köpək, onu mən vermişəm, hər bir ingilisin əmri siz vəhşi çinlilər üçün qanundur.

- Onları verənləri inqilabçı Kanton tezliklə məhv edecək.

Bunu eşitdikdə qan mister Qreyin başına sıçradı və elə bağırdı ki, bütün xidmətçilər səsinə töküldü.

- Bu köpəyi alın, o uzun saçından talvardan asın, mən əmr etmədikcə xilas etməzsiniz, haydı!..

Zavallı Puan Qayı tutub talvarın altına gətirdilər. Mister Qrey də balkondan enib oraya gəldi.

- İndi ayı kimi bağırarsan, - deyə "mədəni, nəcib" Qrey, Puan Qayı söyməyə başladı.

Puan Qayı asarkən, bozarmış dodaqlarından bir kəlmə belə buraxmadı. Lakin qanlı gözlərindən qəzəb atəşi saçılırdı. Qrey cənabları ingilis "ədalətini" icra etdikdən sonra yenə balkona qalxıb qəzet oxumağa başladı. Aradan xeyli keçmiş xidmətçi çinli ona çay gətirirkən, Puan Qayı azad etməyini yadına saldı. Mister saata baxıb dedi: "Hələ iki dəqiqə qalmış". Sonra qəzeti masanın üstə qoyub çay içməyə başladı. Hərgah mister Qrey o zaman dönüb xidmətçinin üzünə baxsaydı, onun baxışında özünə qarşı nifrət əlamətlərini aydın oxuyardı.




Mister Qrey çayını içib aşağı endi və Puan Qayı xilas etməyə əmr verdi. Onu azad etdilər. Sonra mister Qrey qayçı gətirtdi və öz əli ilə Puan Qayın o uzun saçlarını kəsib ona uzatdı:

- Bunu al, saxla, ta ki, tutduğun cinayəti unutmayasan.

Sonra emr etdi ki, onun arxalığını versinlər. Puan Qay illərlə bəslədiyi saçını alıb:

- Mister, mən and içirəm ki, heç bir an bu günü unutmayacağam, bu günə kimi mən inqilabçı deyildim, siz bu saçları kəsməklə öz əlinizlə məni inqilabçı kantonçular sırasına göndərirsiniz, sizə artıqca təşəkkür edirəm, - deyə Puan Qay götürüldü.

Altı aydan artıq idi ki, Puan Qay Kanton inqilabçı ordusunda şücaətlə dava edirdi. İmperialistlərin ümidi olan Şimal ordusu Qızıl Kanton ordusunun dəhşətli hücumları qarşısında davam edə bilməyib, əllərində olan kənd və şəhərləri boşaltmağa məcbur olurdu. Növbə Puan Qayın vətəni Xan Qou şəhərinə çatmışdı. Puan Qay irəlidə gedən bölüyün sırasında idi. Şəhərə hücum başlandı. Puan Qay qızmış şir kimi müharibə edirdi. Ən atəşli yerə özünü atırdı. Şəhərə girən birinci Puan Qay oldu. Günorta olduqda Xan Qou Kanton əsgərləri tərəfindən alındı. Lakin küçələrdə, ara-sıra güllə səsi gəlirdi.Puan Qay, mister Qrey sakin olan küçə ilə evlərinə, anasını yoluxmağa gedirdi. Birdən qarşısına misterin köpəyi Bollu çıxdı. Sanki qəza Puan Qayın intiqamını yerdə qoymaq istəmirdi. Puan Qay cəld tüfəngi döşünə alıb iti nişanəyə götürdü. Güllə açıldıqda köpək yerə sərildi. Puan Qay gedib onun quyruğundan tutdu və sürükləyərək mister Qreyin darvazası ağzına gətirdi. Misterin darvazası, qapılan, pəncərələri bağlı idi. Həyətdə, evdə bir insan görünmürdü. Puan Qay kəmərini açıb itin başına keçirdi və xeyli çətinlik ilə darvazadan asdı. Sonra cib kitabçasını çıxarıb bir varaq cırdı, yazdı, darvazaya bənd etdi. Sonra fəxr ilə oxudu:

"İngilislərə və köpəklərə içəri daxil olmaq qadağandır".

- Mister Qrey! İndi Puan Qayı ölənə kimi unutmazsan, - deyərək yoluna davam etdi.




“THE EVENTS OF FITZGERALD'S OWN LIFE CAN BE SEEN AS A STRUGGLE TO REALIZE PROMISES OF LIFE.”



















# FRANCIS SCOTT KEY FITZGERALD

Francis Scott Key Fitzgerald was a Jazz Age novelist and short story writer who is considered to be among the greatest twentieth-century American writers. Born on September 24,1896,he was the only son of an aristocratic father and a provincial,working-class mother. He was the product of two divergent traditions: while his father's family included the author of "The Star-Spangled Banner" (after whom Fitzgerald was named),his mother's family was,in Fitzgerald's own words,"straight 1850 potato-famine Irish." As a result of this contrast,he was exceedingly ambivalent toward the notion of the American dream: for him,it was at once vulgar and dazzlingly promising.







Fitzgerald's first novel This Side of Paradise is in many respects an autobiographical account of the author's own life – even though Fitzgerald was only 23 at the time he wrote it.

**THE BEAUTIFUL AND DAMNED** is Fitzgerald's second novel which is the account of hedonistic socialites whose lives unravel as soon as the magic of young love fades away along with her beauty and his inheritance: Anthony and Gloria Patch are the least sympathetic of Fitzgerald's heroes.

Shortly after their relocation to France, Fitzgerald completed his most famous and respected novel, The Great Gatsby which is considered to be Fitzgerald's masterpiece:

The story of young parvenu Jay Gatsby who went off to become incredibly wealthy just to impress the girl he fell in love with when he was just an ordinary soldier. Fitzgerald's own divided nature can be seen in the contrast between the novel's hero, Jay Gatsby, and its narrator, Nick Carraway.

The former represents the naive Midwesterner dazzled by the possibilities of the American dream; the latter represents the compassionate Princeton gentleman who cannot help but regard that dream with suspicion. The Great Gatsby may be described as the most profoundly American novel of its time; Fitzgerald connects Gatsby's dream, his "Platonic conception of himself," with the aspirations of the founders of America.

A year later, Fitzgerald published a collection of short stories, All the Sad Young Men. This book marks the end of the most productive period of Fitzgerald's life; the next decade was full of chaos and misery.

Many of his short stories allowed Fitzgerald to explore ideas and situations which were later reworked in to his longer fiction.

Fitzgerald died of a heart attack at the age of 44 before he was able to finish his last novel The Love of the Last Tycoon.






# МАРИНА ИВАНОВНА ЦВЕТАЕВА

*поэт*
*прозаик*
*переводчик*

*Отец, Иван Владимирович, – профессор Московского университета, известный филолог и искусствовед; Мать, Мария Мейн, была пианисткой, ученицей Антона Рубинштейна.Марина начала писать стихи – не только на русском, но и на французском и немецком языках – ещё в шестилетнем возрасте.*



# ВСЯ МОЯ ЖИЗНЬ -ЭТО РОМАН С СОБСТВЕННОЙ ДУШОЙ

**Марина Ивановна**

**«Вся моя жизнь, - говорила Марина Ивановна, - это роман с собственной душой».** Точнее и не скажешь. Она жила и дышала поэзией, у нее были исключительные предпочтения и пристрастия: не любила театр за его искусственность, боготворила Пушкина и Ахматову, преклонялась перед Блоком и Маяковским, не любила звуки скрипки и обожала флейту и виолончель; любимое мужское имя – Георгий, любимые цветы – астры и хризантемы. Любимый цвет – зеленый, любимый пейзаж – пенные волны моря; не любила слова **«поэтесса»** .

***Однажды Марине Цветаевой дали совет носить очки. Она отказалась, сказав: «Я уже сама себе составила представление о людях и хочу их видеть такими».***

***Молодой и талантливый Арсений Тарковский всегда боготворил Цветаеву и ее стихи. Они гуляли по Москве, читали друг другу стихи, и это продолжалось в течение нескольких месяцев.***







*Она цветет не Божьим даром,*
*Не совокупностью красот.*
*Она цветет почти что даром:*
*Одной фамилией цветет.*



